

## İSTİFADƏ NƏTİCƏLƏRİ:

- Qavrayış təhrifi
- Panika
- Narahatlıq
- Koordinasiya hərəkətinin pisləşməsi
- Reaksiya gecikməsi
- Yuxululuq və depressiya
- Ürək döyüntüsünün artması və infarkt riski

## UZUN MÜDDƏTLİ İSTİFADƏ NƏTİCƏLƏRİ:

- Müqavimətin olmaması ümumi xəstəliklər (soyuqdəymə, bronxit, və s.)
- İmmun sisteminin zəifləməsi
- Artım pozulması
- Bədəndə anomal hüceyrələrin sayının artması.
- Kişi hormonlarının azalması
- Beyin toxumasının dönməz patologiyası və ağciyər liflərinin məhvi
- Cinsi gücün azalması
- İnformasiya assimilyasiya qabiliyyətinin azalması, qavrayış gecikmələri
- Apatiya, yuxululuq, motivasiya çatışmazlığı
- Xasiyyət və əhval dəyişiklikləri
- Ətrafı aydın anlaya bilməmək

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu

**Tel:** (+994 12) 498 25 28; (+994 12) 498 58 82; (+994 12) 493 12 37
**E-mail:** info@nmdk.gov.az
**Web:** www.nmdk.gov.az

Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə DÖVLƏT KOMİSSİYASI



# MARİXUANA HAQQINDA HƏQİQƏT

## Bu buklet nə üçün hazırlanıb

Dünyada narkotiklər haqqında çox danışılır. Bunların bəziləri həqiqətdi, bəziləri isə yox. Həqiqətdə narkotik haqqında eşitdiklərinizin çoxunu narkotik satanlar yayır. İslah olmuş keçmiş narkotik satıcıları etiraf edillər ki, narkotiki satmaq üçün hər sözü danışa bilərlər.

**Aldanmayın.**

Narkotiklərdən uzaq olmaq ətrafınızı, dostlarınızı onlardan qorumaq üçün sizə **Bunları bilməyiniz vacibdir**. Buna görə bu buklet sizin üçündür.

www.nmdk.gov.az

## MARİXUANA NƏDİR

**Marixuana** – çətənə bitkisinin qurudulmuş çiçəkli baş qismindən və yarpaqlarından əldə edilən, tütünə bənzəyən yaşımtıl və ya qəhvəyi bir maddədir. Marixuana tozu, Kənaf bitkisinin qara və ya qəhvəyi çiçəkli baş qisminin toza çevrilmiş halıdır.

**Həşiş**– çətənə bitkisindən hazırlanan narkotik maddədir. Onun təsiri ortalama marixuanadan 6 dəfə güclüdür.

**Kannabis**– hind çətənəsindən hazırlanmış bütün narkotik maddə növlərinin adıdır "həşiş" və "marixuana" daxil olmaqla.

Adlarından asılı olmayaraq bütün bu narkotik maddələr halüsinoqen maddə hesab olunur. Hansı ki,belə maddə insanın ətraf mühiti qavramasına təsir edir.
Qavramanı təhrif edən kimyəvi maddə «TQK»(delta-9-tetra-qidrokannabinol) adlanır.
Son illərdə "TQK" ümumi tendensiyasının tərkibinin artırılması müşahidə olunur.

## MARİXUANA - DÜNYADA ƏN GENİŞ YAYILMIŞ NARKOTİK MADDƏDİR.

Yalnız Avropada 80,5 milyon insan heç olmasa bir dəfə də olsa onun dadına baxıb. 23 milyon bir ildə və təxminən üç milyon hər gün istifadə edir. Marixuananı həmçinin siqaretin içinə də töküb çəkirlər o, qarışıq qida ilə və ya çay kimi də istifadə olunur. Marixuana adətən yaşıl, qəhvəyi və ya boz rəngdədir.

İstifadədən bir neçə dəqiqə sonra təsir etməyə başlayır. Bununla bilavasitə bağlı olaraq ürəyin döyüntüsü və koordinasiya zəifləyir.
Marixuana qəbulu əqli fəaliyyət üçün ciddi təhlükə olub, insanın daha zəif yaddaş və əqli qabiliyyətə malik olmasına gətirib çıxarır.
Heyvanlar üzərində aparılan tədqiqatlara görə marixuana istifadəsindən sonra beyin strukturunun pozulması müşahidə olunmuşdur.



## MARİXUANANIN ZƏRƏRLİ TƏSİRLƏRİ

Marixuana dərhal reaksiya verir, ürək döyüntüsü, yuxululuq, və nəhayətində depresiyaya gətirib çıxarır. Bəzi hallarda panika və narahatlıq hissi olur.

Lakin problemlər bununla bitmir. Elmi araşdırmalara görə, "TQK bədəndə bir həftə və ya daha uzun müddət qalır.
Marixuana tüstüsü siqaret tüstüsündən 50% - 70% daha çox xərçəngə səbəb olan maddələrə malikdir.

Tədqiqatlar nəticəsində məlum olub ki, bir dəfə çətənə istifadəsi beş dəfə ard-arda çəkilən siqaretdən daha güclü təsir edir.

Marixuana çəkənlər çox vaxt bronxit - tənəffüs yollarının iltihabı kimi xəstəliklərdən əziyyət cəkir.
Bu maddələr sizin yalnız fiziki sağlamlığınıza ziyan vurmur.

Marixuana hüceyrələrin quruluşunu dəyişir və deformasiyasına səbəb olur.

Araşdırmalar göstərir ki, marixuana istifadəsindən sonra insanların zehni funksiyaları pisləşməyə başlayır. Çətənənin tərkibində olan maddələr beyin sinirlərinə təsir edir və yaddaş pozğunluğuna səbəb olur.

Çətənə narkotikın elə növüdür ki, hüceyrənin anormal bölünməsinə səbəb olur və irsi ötürülür . Marixuana və ya həşiş istifadə edən hamilə qadın,vaxtından əvvəl və anormal uşaq dünyaya gətirə bilər.

Tədqiqatlar göstərir, ananın narkotik vasitə gəbul etməyi uşaqların anadangəlmə qüsurla doğulmasına və zehni inkişafdan geri qalmasına səbəb olur. Belə uşaqlarda sümük iliyi xərçəngi olması risk böyüyür.

